

# Azərbaycan Ordusu tam və qəti qələbə əzmi ilə irəliləyir

***Azərbaycan Ordusu cəbhədə hər gün yeni bir tarix yazır. Hər gün yeni ərazilərimiz düşməndən azad edilir. İşğalçı qüvvələrə ağır zərbə vurulur. Əks-hücum əməliyyatlarının davam etdiyi 20 günə yaxın vaxt ərzində xeyli ərazilərimiz mənfur düşməndən təmizlənib. Qarşıdakı günlərdə yeni xoş xəbərlərin gələcəyinə böyük inamımız var. Ordumuzun tam və qəti qələbəsinə az qalır.***

### *Füzuli şəhəri azad olundu*

Şanlı ordumuz terrorçu Ermənistan üzərində daha bir qələbə qazanıb – Füzuli şəhəri düşməndən tamamilə azad edilib. Bu xoş xəbərin müjdəsini dünən xalqa Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev verdi.

Dövlət başçısı bildirdi ki, Füzuli rayonunun mərkəzindən əlavə, Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı kəndləri də düşmən tapdağından xilas edilib.

### *Gəncə yenidən atəşə tutuldu*

Terrorçu Ermənistan dövləti isə Azərbaycanın dinc əhalisinə qarşı təxribatından əl çəkmir. Dünən Ermənistan silahlı qüvvələri Gəncəni növbəti dəfə raket atəşinə tutub. Şəhərin mərkəzi hissəsində yerləşən Cavadxan qəsəbəsinə gecə saat 1 radələrində endirilmiş raket zərbələri nəticəsində şəhər sakinlərindən 13 nəfər həlak olub, 52 nəfər yaralanıb. Mülki obyektlərə və infrastruktura ciddi ziyan dəyib.

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin "Twitter" hesabında yazdığına görə, Gəncə ballistik raketlərdən atəşə tutulub: "Skad" ballistik raket hücumu və Ermənistanın baş naziri Nikol Paşinyanın Gəncədə mülki şəxsləri necə gəldi öldürməsi Səddam Hüseynin mülki şəxslərə qarşı istifadə etdiyi eyni taktika və raket sistemidir".

Hadisə ilə əlaqədar baş prokuror Kamran Əliyev və Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov da dünən Gəncədə olublar. Kamran Əliyev jurnalistlərə verdiyi açıqlamada bildirib ki, Ermənistan ordusu döyüş meydanında məğlubiyyətə uğradıqca, çarəsizlikdən dinc əhaliyə qarşı hücumlarını şiddətləndirir. Bu da onların acizliyindən xəbər verir: "Hesab edirəm ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi ağlını itirib. Bu, bəşəriyyət, insanlıq əleyhinə ciddi cinayətdir. Bunun həm hüquqi, həm də siyasi məsuliyyəti Ermənistan rəhbərliyi üçün çox ağır olacaq. Azərbaycan rəhbərliyi, cənab Prezident həm siyasi, həm hərbi sahədə buna adekvat cavablar verəcək".

Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov isə deyib ki, mülki şəxslərin həlak olması erməni vəhşiliyi və vandalizminin nəticəsidir: "Təkcə Gəncəni deyil, digər yaşayış məntəqələrimizi də vururlar. Burada heç bir hərbi obyekt yoxdur, əhalinin çox yaşadığı yerdir. Camaat çox mətin və qətiyyətlidir. Heç bir panika yoxdur. Hazırda Ermənistan öz dərsini alır, Azərbaycan Ordusu qətiyyətli irəliləyişlər edir. Azərbaycan xalqı Prezidentini dəstəkləyir və Ali Baş Komandan tarix yazır".

Türkiyə Prezidentinin köməkçisi Fuad Oktay, Ədliyyə naziri Abdulhamit Gül və CHP sədri Kamal Qılıcdaroğlu da Ermənistanın dinc insanları qətlə yetirməsini müharibə cinayəti sayıb və Azərbaycanın yanında olmaqda davam edəcəklərini bildiriblər. Türkiyə XİN isə xüsusi bəyanatla çıxış edib.

Birləşmiş Millətlər Təşkilatı da mülki şəxslərə edilən hücumları kəskin şəkildə qınayıb. Qurumun bu barədəki bəyanatında deyilir ki, təşkilat Ermənistan və Azərbaycan arasındakı münaqişədən və mülki əhaliyə hücumdan çox narahatdır.

### *Ordumuz düşmənə sarsıdıcı zərbələr vurur*

Azərbaycan Ordusu isə cəbhədə uğurla irəliləməkdə və düşmənə ağır zərbələr vurmaqdadır. Müdafiə Nazirliyindən verilən məlumata görə, silahlı qüvvələrimizin sutka ərzində həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Bundan əlavə, oktyabrın 16-da və 17-nə keçən gecə döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan var.

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəlisi döyüş mövqelərini özbaşına tərk edərək geri qaçıb. Onların arasında da çoxlu sayda ölən və yaralanan var. Gücləndirmə məqsədilə alaya təhkim olunmuş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək aradan çıxıblar. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilir.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina halları qeydə alınıb. Qoşunlarımız bütün cəbhə boyu düşmənə dəqiq atəşlə zərbə vurmaqla əməliyyat üstünlüyünü saxlayır.

Azərbaycan Prezidenti İlham Əliyev dünən xalqa müraciəti zamanı düşmənin indiyədək məhv edilmiş hərbi texnikalarının sayını da açıqlayıb: 234 ədəd hərbi texnika məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını – 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb, özüyeriyən artilleriya qurğusu – 16 ədəd məhv edilib, müxtəlif çaplı toplar – 190, "Uraqan" sistemi – 2, TOS odsaçan – 1, əməliyyat-taktiki raket kompleksi "Elbrus" – 2, Toçka-U – 1; OSA zenit-raket kompleksi – 35; TOR zenit-raket kompleksi – 3, KUB və KRUQ zenit-raket kompleksi – 3; radio-elektrik mübarizə sistemləri – 9; S-300 zenit-raket kompleksi – 2, yük avtomobillərinin 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb.

Dünən, eyni zamanda, Ermənistan ordusunun daha bir yüksək rütbəli zabiti məhv edilib. O, Ermənistan silahlı qüvvələrinin polkovniki Aşot Qazaryandır.

***Ordumuzun qələbə yürüşü davam edir. Uğurlar olsun!***

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

